# AZƏRBAYCAN XALQININ VƏ DÖVLƏTÇİLİYİNİN TƏŞƏKKÜLÜNDƏ TÜRKMAN ETNOSİYASİ VARLIĞINA DAİR

**Fərəh Hüseyn**
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
Azərbaycanın XV-XVIII əsrlər tarixi şöbəsi
a.e.i., t.ü.f.d. dos.,
ferah@mail.ru

## IN THE ORGANIZATION OF THE PEOPLE AND THE STATE OF AZERBAIJAN ON THE EXISTENCE OF THE TURKMAN ETHNICITY

**Farah Hussein**

**Summary**

The process of political consolidation of the Turcoman tribes began in Anatolia and reached its climax in Azerbaijan with the formation of the Qaraqoyunlu, Aqqoyunlu, Safavid, and Afshar states. In this historical period called *Turcoman epoch* by the author, the ethno-political basis for the formation of our statehood basing on the Oghuz-Turkish tradition and the Azerbaijani nation was created. One of the most significant events of the mentioned period was the formation of the Turcoman consciousness, the consciousness of belonging to the Turcoman nation.

**Key words:** Azerbaijani statehood, Turcoman tribes, ethno-political, Azerbaijani people, national consciousness.

## AZƏRBAYCAN XALQININ VƏ DÖVLƏTÇİLİYİNİN TƏŞƏKKÜLÜNDƏ TÜRKMAN ETNOSİYASİ VARLIĞINA DAİR

**Fərəh Hüseyn**

**Xülasə**

Türkman boylarının siyasi cəhətdən konsolidasiya prosesi Anadolu coğrafyasında başlayıb Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi, Əfşar dövlətlərinin yaranması ilə Azərbaycanda kulminasiya səviyyəsinə yüksəldi. Müəllif tərəfindən *Türkman epoxası* adlandırılan bu tarixi dönəmdə Oğuz-Türk dövlətçilik ənənəsinə söykənən dövlətçiliyimizin və Azərbaycan millətinin formalaşması üçün etno-siyasi zəmin yarandı. Sözügedən dövrün ən əlamətdar hadisələrindən biri Türkman şüurunun, Türkman elinə mənsubiyyət bilincinin formalaşması idi.

**Açar sözlər:** Azərbaycan dövlətçiliyi, Türkman boyları, etno-siyasi, Azərbaycan xalqı, milli şüur.

## О СУЩЕСТВОВАНИИ ТУРКМЕНСКОГО ЭТНОСА И ЕГО РОЛИ В ФОРМИРОВАНИИ АЗЕРБАЙДЖАНСКОГО НАРОДА И ГОСУДАРСТВА

**Аннотация**

Процесс политической консолидации туркоманских племен начался в Анатолии и достиг своего апогея в Азербайджане с образованием государств Карагоюнлу, Аггоюнлу, Сефевидов и Афшаров. В этот исторический период, названный автором туркоманской эпохой, была создана этнополитическая почва для формирования отечественной государственности, основанной на огузско-тюркской традиции, и азербайджанской нации. Одним из наиболее значимых событий указанного периода стало формирование туркоманского самосознания, осознания принадлежности к туркоманскому народу.

**Ключевые слова:** азербайджанская государственность, туркоманские племена, этнополитика, азербайджанский народ, национальное самосознание.

**Giriş:** Azərbaycan xalqının və dövlətçiliyinin tarixi məsələlərinə dərindən bələd olan və son dərəcə heysiyyatla yanaşan böyük Azərbaycançı Prezident Heydər Əliyev müsahibələrinin birində demişdir: “*Tarixi araşdıranda gördüm ki, Güney Azərbaycan, Quzey Azərbaycan və İraq türkmanları bir bütövün parçalarıdır*”. [22, 4; 23, 15] Bəli, ”*bir bütövün parçaları*”... Bu sözlərdə böyük həqiqət var – tarixi həqiqət! Bu gün ayrı-ayrı dövlətlərin sərhədləri ilə bölünmüş *“parçalar”* bir-neçə əsr əvvəl bütöv halında idi və bu bütövün adı ***Türkman*** və ya ***Türkmaneli*** idi.

**Türkman etno-siyasi varlığının təşəkkülü tarixindən**

Orta əsrlər İslam dünyasının tarixi reallığı olan Türkman etnosiyasi varlığının təşəkkül prosesi həm xronoloji, həm də coğrafi miqyasına görə olduqca geniş, əhatəli və mərhələli bir sürəç idi. *“Türkman”* etnoniminin yaranması və izahına gəlincə qeyd edək ki, bir sıra tədqiqatçılar XI əsr müəllifi Mahmud Qaşqarinin *"Divani-lügət-üt-türk"* əsərindəki müvafiq qeydini [7, 473] türkmanlara aid ilk məlumat kimi qəbul etsələr də, [31, 135; 13, 134] bu terminə daha əvvəlki əsrlərin qaynaqlarında, o cümlədən VIII əsr Çin mənbələrində rast gəlinir. [9, 24-42] "Türkmən" etnik adı tarixi mənbələrə görə, V əsrdən bəlli olsa da, bu ad X əsrdə özünə pasport qazanmışdır. [15, 6] İslam dinini qəbul etmiş Oğuz/Türk boylarına şamil olunan *Türkman* sözünün məna etibarilə bir neçə versiyası arasında ən qəbul olunmuş izahı da məhz *“Türk-i iman”* yəni *“imana gəlmiş türklər”* ifadəsi ilə bağlıdır.[1] [20, 15-17]

C.Cahenin bildirdiyi kimi, Azərbaycan, türkmanların cəmləşdiyi bölgə halına gəlmiş və bu ölkə onların Yaxın Şərqi və “*İranı istilaya başlamasından etibarən bu günə qədər olduğu kimi qalmışdı*”, yəni etnik baxımından türk kimliyini qorumuşdu. [17, 28; 5, 9-10]

Oğuz/Türkman ellərinin istilasını təsvir edən qaynaq məlumatları onların həm say etibarilə çoxluğunu, həm də döyüşkənlik qabiliyyətini xüsusilə qeyd edirlər. Məsələn, Türkman ellərinin Azərbaycandan keçərək Anadoluya gəlişini təsvir edən erməni tarixçisi Aristakes Lastivertsi yazırdı: *“Türkistandan möhtəşəm ordu gəldi. Onların atları qartal kimi sürətlidir, atlarının dırnaqları sərt daşlara bənzəyir. Onların yayları çəkilmiş, oxları iti, kəmərləri möhkəmdir, çəkmələrinin dərisini yırtmaq mümkün deyil. Onlar Vaspurakan əyalətinə girib xristianlar üzərinə qurd kimi hücum etdilər”*. [33, 86-87; 17, 26] Bir digər qaynaq *“Ovalar, yayla və dağlar, dənizdəki qumlar kimi Türkmanlar ilə doldu.”* [29, 269]

Səlcuq fəthlərilə başlayan və monqolların işğallarına qədər davam edən kütləvi miqrasiya nəticəsində yerli əhali ilə tez bir zamanda qaynayıb qarışan Türkman boyları Ön Asya coğrafyasında aparıcı etnosiyasi faktora çevrilərək həm Azərbaycan, həm də Türkiyə əhalisinin bir xalq kimi təşəkkül etməsində və eyni zamanda özlərinə məxsus dövlətçilik sisteminin formalaşmasında həlledici qüvvəyə çevrildilər. Türkmanların Türkiyə tarixində rolunu dəyərləndirən Faruq Sümer *“Anadolunun Türkiyə halına gəlməsini”* məhz Türkmanlar sayəsində baş verdiyini qeyd edir. [24, 574]

Səlcuq imperiyasının sərhədlərini mühafizə etmək üçün əsasən Anadolu ərazisində təsis edilən bu bəyliklər, Səlcuq imperiyasının tənəzzülə uğraması nəticəsində tədricən müstəqil siyasi qurumlara çevrilməyə başladılar. Türkman boy və əşirətlərinin siyasi konsolidasiyasının ilkin mərhələsini təşkil edən bu proses Anadolunun etnosiyasi mənzərəsini müəyyənləşdirmişdi və təsadufi deyil ki, dövrün mənbələrində Anadolu coğrafiyası *Türkmaneli* və ya *Türkmən ölkəsi* adlanırdı. Bu fakt köhnə Avropa xəritələrində də öz əksini tapmışdı – Şərqi Anadolunun Türkman boyları ilə məskun ərazilər həmin xəritələrdə *“Turcomania”* kimi qeyd olunur. [8]

**Türkman etno-siyasi varlığının Azərbaycan epoxası**

Azərbaycanda Türkmanların siyasi cəhətdən təmərküzləşməsi prosesi monqol işğalları və ardınca Əmir Teymur yürüşləri nəticəsində müəyyən müddət ləngimişdi. Lakin xarici yürüşlərə

[1] *Türkman* sözünün etimologiyası hakkında daha geniş bax: Neşri [20, 15-17], Yıldırım [31, 135], Ağayev [1,151-153], Paşayev [23, 16,17].

qarşı mübarizədə tədricən hərbi və siyasi qüdrətini artıran Türkman boyları XIV-XV əsrlərin qovşağında bölgədə artıq söz sahibinə çevrildilər. Həmin dövrdə siyasi mərkəz anlamına gələn və həm də dövlətçilik rəmzini ifadə edən *"Türkman taxtı"* termininə qaynaqlarda tez-tez rast gəlinir ki, bu da Türkman varlığının siyasi cəhətdən formalaşmasının real təsbiti idi. XV əsrə qədər *Türkman taxtı* və ya *taxt-ı Türkman* ifadəsi Şərqi Anadoluda Oğuzların Bozoq qoluna mənsub Zülqədəroğulları tərəfindən təsis edilən bəyliyə aid edilirdisə, bəylik özü *Türkman vilayəti*, hakimləri isə *Türkman padişahı, şəhriyarı* adlandırılırdılarsa, [11, 341] XV əsrin başlanqıcından etibarən bu məfhumlar Azərbaycanın etnosiyasi mühitinə transfer olundu. Qeyd etməliyik ki, Türkman boylarının Anadoluda bəyliklər və tayfa konfederasiyaları yaratmaları ilə başlayan siyasi cəhətdən təşkilatlanma prosesi Azərbaycanda Qaraqoyunlu, Ağqoyunlu, növbəti əsrlərdə Səfəvi dövlətlərinin təsis edilməsilə öz kulminasiya nöqtəsinə yüksəldi. Məhz bu coğrafiyada türkman etnosiyasi varlığı öz potensialını ən dolğun şəkildə reallaşdıraraq Xorasana, hətta Herata qədər olan ərazilərdə bir-neçə əsr boyunca hökmranlığını davam etdirdi və bölgənin siyasi xəritəsini cızdı. Profesor Şahin Fərzəliyev də azərbaycanlıların etnogenezində fəal iştirak etmiş türkmanların ağqoyunluların, sonra isə onlardan ayrılaraq qızılbaş tayfa birliyinin yaranmasında, XV-XVII əsrlər tariximizin dövlət quruculuğunda böyük nüfuza sahib olduqlarını və müstəsna xidmət göstərdiklərini yazır. [19, 14; 6, 3]. Bu,Türkman varlığının təkamülü prosesində olduqca mühüm mərhələ idi. Səfəvi dövlətinin banisi Şah İsmayıl Xətai (1501-1524) Türkman dövrünün mahiyyətini poetik tərzdə belə ifadə etmişdi:

*"Yetdikcə tükənür ərəbin kuyü məskəni,*
*Bağdad içində hər necə kim türkman qopar".* [25, 312]

Azərbaycan tarixçisi Tofiq Nəcəfli bu dövrü belə xarakterizə edir: *"Azərbaycanda Qaraqoyunlu və Ağqoyunlu dövrü kimi tanınan XV yüzillik, öz tarixi-fəlsəfi mahiyyətinə görə dövlətçilik tarixmizin dönüş mərhələsi hesab edilə bilər. Bu dövr Azərbaycan türklərinin milli inkişaf tarixində xüsusi önəm daşıyır. Çünki XV yüzilliyin başlanqıcında ölkəmizdə yadelli ağalığına son qoyuldu və Oğuz-Türk dövlətçilik ənənəsinə söykənən dövlətçiliyimiz bərpa edildi. Azərbaycan Qaraqoyunlu və onu əvəz edən Ağqoyunlu dövlətlərinin yaranması ilə Azərbaycan ərazisində Oğuzlar (türkmanlar) artıq yalnız etnik cəhətdən deyil, həm də siyasi baxımdan hakim mövqe qazandılar. Bu dönəmdə Dərbənddən Diyarbəkrə və Ərdəbildən Ərzincana qədər uzanan ərazi, yəni Azərbaycan və Şərqi Anadolu torpaqları Yaxın Şərq xalqlarının şüurunda "Türkman eli", Təbriz isə "dar-ül-mülkü Türkman" kimi qəbul edilməyə başlanmışdı."* [21, 194]

Nəcəflinin fikrinə qatılaraq əlavə etmək istərdik ki, Qaraqoyunlu və Ağqoyunlu dövlətləri ilə başlayan, Səfəvi və Əfşar imperiyaları ilə davam edən Türkman epoxası Azərbaycan dövlətçiliyinin və xalqının formalaşmasında da müstəsna rola malikdir. Bu dövrdə həqiqətən də bütün Azərbaycan torpaqları vahid dövlət daxilində birləşdirilmiş və türkman modelində qurulan mərkəzləşdirilmiş dövlət sistemi tərəfindən idarə olunmuşdur.

**Türkman milli kimliyinin təzahürü**

Azərbaycan millətinin formalaşması Vətən tarixşünaslığında qəbul olunmuş konsepsiyaya görə, XIX-XX əsrlərin qovşağında başlamışdı. Bununla belə bir millətin formalaşmasını şərtləndirən əsas amillərin – ümumi dil və ümumi ərazi, iqtisadi əlaqələr sisteminin yaranması, dini, mənəvi və mədəni birliyin təmin olunması, bunlarla yanaşı siyasi elitanın formalaşması və milli kimlik kimi özünü dərketmə (identifikasiya) amili də Türkman epoxası, xüsusilə Səfəvi hakimiyyəti dövründə hasil olmuşdur. Bu inkar edilməz faktdır. Sadaladığım bu amillər arasında Türkman milli kimliyi, yəni özünü Türkman kimi identifikasiya amili üzərində xüsusilə dayanmaq istərdim. Çünki digər amillərdən fərqli olaraq Türkman milli kimliyi, yəni özünü Türkman olaraq dərk etmə şüurunun formalaşması məsələsi polemika, mübahisə doğura bilən mövzudur və, düşünürük ki, gələcək elmi tədqiqatlara ehtiyacı olan problemdir. Türk tarixinin ən mötəbər tədqiqatçılarından olan Faruk Sümer hələ monqolların hakimiyyəti dövründə Hülakülər sarayında qüvvətli bir şəkildə Türklük şüurunun doğduğu nəticəsində meydana gətirilən əsərlər, Qərbi Türklərdə, yəni Türkmənlərdə də

qövmi (milli – H.F.) duyğuların daha şüuulu və daha yaygın bir hala gəlməsində mühüm bir amil təşkil etdiyini qeyd etmişdi [24, XIX] Bununla yanaşı fərqli mülahizələrə də rast gəlmək olar. Məsələn, belə bir fikir də var ki, Türkman cəmiyyətinin və ya sosial toplumunun ictimai şüuru aşağı səviyyədə olub, tayfa mənsubiyyəti səviyyəsini aşıb yüksələ bilməmişdi: ayrı-ayrı qəbilə üzvləri özlərini daha çox tayfa və ümmət (dini icma) müstəvidində dərk edirdilər; *"konkret bir oğuz tayfasının nümayəndəsi özünü ümumiləşdirilmiş "türkmən", "türkman", "oğuz", "türk" kimi yox, daha çox mənsub olduğu tayfanın nümayəndəsi (bayat, oğuz, əfşar, padar, cavanşir, qacar və s.) və müvafiq dini məzhəbin tərəfdarı (şiə, ələvi, hənəfi sünni, şəfeyi sünni və s.) çərçivəsində dərk edirdi"*. [8] Bu mülahizəyə görə, Türkman istilahın geniş kontekstdə istifadədən çıxmasının, və yaxud unudulmasının (İraq, Suriya İran[1] türkmanları və s. kimi lokal miqyaslı istisnalar olmaqla) əsas səbəbi də elə tayfa təfəkkürünə bağlı olması göstərilir.

Problem ilə bağlı qaynaq məlumatlarının təhlili nəticəsində məlum olur ki, bu dövrdə xüsusilə Azərbaycanda və Anadoluda məskunlaşan Oğuz/Türk boyları arasında Türkmanlıq məfhumu, habelə türkmanlığa mənsubiyyət bilinci, özünü dərk etmə şüuru nəinki olduqca qüvvətli idi, bu bilinç hətta dövlət qurumları və dövlətlərarası münasibətlərin tənzimlənməsini ciddi şəkildə şərtləndirirdi. Dövrün qaynaqlarında bunu təsbit edən kifayət qədər maraqlı məlumat var. Onu da qeyd etməliyik ki, qaynaqlar hökmdarların, ali təbəqədən olan tarixi şəxsiyyətlərin fəaliyyətini əks etdirdikləri üçün topladığımız məlumatlar da həmin hakim dairələrə aiddir. Məsələn, Qaraqoyunlu tayfa ittifaqının başçısı Qara Yusif, aralarında olan ədavətə son qoymaq məqsədilə Ağqoyunlu Qara Osmana 1405-ci ildə yazdığı məktubda hər iki tərəfin Türkman olması faktına diqqət çəkərək məhz bu səbəbə görə düşmənçiliyin aradan qaldırılmasını təklif edir.[28, 59; 21, 111].

Ümumiyyətlə, Azərbaycanda bərqərar olmuş hakim sülalələrdə Türkmanlıq heysiyyatı güclü olub, onlar özlərinin Oğuz Türklərindən gəldiklərini, ulu əcdadlarının Oğuz olduğunu biliblər və yeri gələndə digər Türkman mənşəli sülalələrdən olan hakimlərə də öz mənşələrilə ilə bağlı xatırlatmalar ediblər. Buna dair qaynaqlarda diqqəti çəkən çox maraqlı məlumatlar var. Məsələn, Osmanlı padişahı II Sultan Murad (1421-1451) tərəfindən 1449-cu ildə elçi qismində Qaraqoyunlu sarayına göndərilən Şükrullah Əl-Amasyavi adlı bir Osmanlı müəllifinin əsərindən məlum olur ki, Qaraqoyunlu hökmdarı Cahanşah (1436-1467) onu qəbul etdiyi zaman Sultan Muradın özünün *"axirət qardaşı"*, həm də əqrabası (qohumu) olduğunu demişdi. Elçi bu əqrabalığın nəyə əsaslandığını soruşduqda, Cahanşah buna cavab vermək üçün "tarix oxuyan" Mövlana İsmayılı çağırtdırmış, o da özü ilə gətirdiyi monqol qrafikası ilə yazılmış *"Oğuz tarixi"* adlı əsərdən Oğuzun şəcərəsinə aid hissəni oxuyaraq Qara Yusifin və Sultan Muradın bir soya mənsub olduqlarına aydınlıq gətirir. [30, 163; 17, 269]

Nəql etdiyimiz bu hadisədən üç əsr sonra Azərbaycanda hakimiyyətini qurmuş başqa bir Türkman əslli sülalənin nümayəndəsi təxminən analoji mahiyyətdə olan məktubla Osmanlı hakimiyyətinə müraciət etmişdir. 1733-cü ildə İraqda baş verən müharibə əsnasında Nadir xan Əfşar dövrün Osmanlı sədrəzəmi Həkimoğlu Əli paşaya ünvanladığı məktubunda münasibətləri sülh yolu ilə tənzimləmək istəyini və niyyətini Osmanlı sultanları ilə məhz ortaq Türkman kökəninə mənsubiyyətləri ilə əsaslandırmışdı. Həmin məktubda o, özünün və osmanlıların cədlərinin qardaş olduqlarına istinad edərək tərəflər arasında sülhün münasib olduğunu vurğulamışdı. [27, 60; 2, 95]

Ümumiyyətlə, Osmanlı imperiyası ilə ədalətli, istiqrarlı, möhkəm sülhün bağlanması üçün böyük səy göstərən Nadir şah Əfşarın (1736-1747) bu dövlət ilə münasibətlərdə istinad etdiyi ən mühüm amil məhz ortaq Türkman mənsubiyyəti idi. Əfşar hökmdarı, Osmanlı sultanı I Mahmuda (1730-1754) müraciət edərək iki dövlət arasındakı münasibətlərin, xüsusilə ərazi məsələləri müstəvisində olan mübahisələrin tənzimlənməsində Türkman amilinin rəhbər tutulmasını təkidlə təklif etmişdi.

Ümumiyyətlə, Türkman kimliyinə mənsubiyyət şüuru Nadir şahı bir tarixi şəxsiyyət və dövlət xadimi kimi səciyyələndirən, həm də onun xarici siyasətini şərtləndirən önəmli amil idi. Osmanlı sultanına yazdığı məktubda özünü *"Tanrının inayəti ilə... türkman elinin böyüyü və İran ilə*

*Türküstan məmləkətlərinin sahibi"* kimi təqdim edən Nadir şahın öz ali statusunun mahiyyətini açıq şəkildə ifadə etməsi [18, 1] bu mənada diqqət çəkicidir. Nadir şahın Muğan qurultayındı hökmdar seçilməsindən bəhs edən bir başqa mənbədə göstərilir ki, o, *"Türkman ölkəsinin şahı"* seçilmişdir. [26, 31; 10, 250] Türkman şüuru və həmrəyliyi heysiyyatı Nadir şahın sadəcə Osmanlı imperiyasına deyil, digər müsəlman Türk xanədanı tərəfindən idarə olunan Böyük Moğol dövlətinə də münasibətində özünü göstərmişdi. Belə ki, Hindistanı fəth edən Nadir şah ona qarşı vuruşmuş Moğol hökmdarı Məhəmməd Gürganini (1719-1748) öz ordugahında qəbul etdiyi zaman *"Türkmanlıq adətlərini əsas tutaraq o həzrətə həddindən artıq lütf ilə mərhəmət... və hökmdarlara layiq izzət ilə təmkinlik nümayiş"* etdirərək, onu məhz Türk olduğu üçün əfv etdiyini bildirmiş, Hindistanda isə türk hökmranlığının davam etməsində qətiyyət göstərəcəyinə söz vermişdir [3, 61-62; 14, 7]. Bu xüsusa Britaniya tədqiqatçı alimi Maykl Aksvorti də diqqət çəkərək yazır ki, *"Nadir şah Məhəmməd şahın İranla dostluğu qoruyacağı şərti əsasında Hindistanı idarə etməsinə icazə verdi, çünki onların hər ikisi türk əsilli idilər"*. [3, 85]

Sonda onu qeyd etmək istərdik ki, Türkman etno-siyasi varlığı, o cümlədən Türkman milli kimliyi məfhumları bu gün rəsmi ideologiyamız olan Azərbaycançılıq ideologiyasına və bununla bağlı olan Azərbaycan kimliyi, Azərbaycan milləti, Azərbaycan dövləti kimi anlayışlara əsla alternativ deyil, onu inkar etmir və, ümumiyyətlə, Azərbaycançılıq ideologiyasından kənara çıxmır, tam əksinə – müasir Azərbaycan reallıqlarına cavab verən Azərbaycançılıq ideologiyası Türkman milli kimlik zəmini üzərində qurulub və tarixi kökləri̇lə ona bağlıdır. Bu mənada, yəni tarixi köklərimizə daha sıx bağlanmaq baxımından Türkman məfhumuna və onun kəsb etdiyi mənalara, təbii ki, tarixi kontekstdə sahib çıxmamız vacibdir.

## İstifadə olunmuş ədəbiyyat siyahısı


1. Ağayev R. Ərəb xilafəti dövründə Azərbaycanın əhalisi. Bakı, "Turxan" NPB, 2017.
2. Cəfiyev T. Azərbaycanın feodal dövlətləri XV-XVI əsrin birinci rübündə (Xoca Sədəddin Əfəndinin "Tacüt-təvarix" əsəri əsasında). T.e.n. alimlik dərəcəsi almaq üçün təqdim olunan dissertasiyanın avtoreferatı. Bakı, 2007.
3. Əsgərov Ə. Ümümtürk folkloru tarixində Oğuznamə yaradıcılığı. Bakı, "Elm və Tehsil", 2014.
4. Əzimli D., Qasımov X. Nadir şah Əfşarın barışıq siyasətinin mahiyyətinə dair. "Toplumdan seçilmişə doğru" topluda. S. 248-256. Bakı, "Turxan" NPB, 2022.
5. Köprülü F. Türk Edebiyatında İlk Mutasavvıflar. Ankara, Türk Tarih Kurumu Basımevi, 1976.
6. Məmmədli B., Çingizoğlu Ə. Oğuz-Türkmən tayfaları orta əsr qaynaqlarında. Bakı, SDU, 2012.
7. Moin M. Fərhənge-farsi, c. V. Tehran, h. 1378.
8. Mustafayev Ş. Səlcuqilərdən Osmanlılara: XI-XV yüzilliklərdə Anadolunun türk mühitində etnosiyasi proseslər. Bakı, "Elm", 2010.
9. Mustafayev Ş. Tarixin və bugünün işığında Nadir şah. İngilis şərqşünasın kitabı üzərində bəzi düşüncələr. "Azərbaycan" jurnalı, 25 iyul 2018.
10. Münşi İ. Dünyanı bəzəyən Abbasın tarixi. Bakı, Şərq-Qərb, 2010.
11. Nəcəfli T. Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri (Müasir Türkiyə tarixşünaslığında). Bakı, Çaşıoğlu, 2012.
12. «Qardaşlıq» dərgisi, № 8, İstanbul, 2000.
13. Paşayev Q. Kərkük folklorunun janrları. Bakı, "Elm", 2003.
14. Şah İsmail Hatâî Külliyatı. I Basım. Yayına Hazırlayanlar Babek Cavanşir, Ekber N.Necef, İstanbul, Kaknüs yayınları, 2006.
15. Turan O. Selçuklular tarihi ve Türk-İslam medeniyeti, İstanbul, Ötüken, 2009.
16. Туркманские династии. Выдержки из «Кембриджской истории Ирана». Об истории азербайджанских государств Каракоюнлу и Аккоюнлу. Перевод с английского Ахундовой Наргиз. Баку, ИПО Турхан, 2016.

Хунджи Ф. Тарих-и алам ара-йи Амини. Баку, "Элм", 1987.